# İlham Əliyevin qətiyyətinə söykənən enerji təhlükəsizliyi

## Azərbaycan Prezidentinin iradəsi ilə reallaşan layihələr Avropanın sabit enerji təminatında xüsusi rol oynayır



**Aprelin 4-də Bakı "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarına evsahibliyi etdi. 2015-ci ilin fevral ayından etibarən keçirilən bu tədbir artıq 3-cü ildir ki, həm də "yaşıl enerji" məsələlərini əhatə edir. Bu da ondan xəbər verir ki, Azərbaycan ənənəvi enerji sahələrində olduğu kimi, Avropaya "yaşıl enerji"nin ixracı ilə də bağlı etibarlı təməllər yaradır.**

### Əməkdaşlıq və müzakirə platforması

Azərbaycanın hasil etdiyi təbii qaz artıq 2020-ci ilin sonundan "Cənub Qaz Dəhlizi" vasitəsilə Avropaya ixrac olunur. Bu qaz dəhlizinin çəkilişi ilk gündən Prezident İlham Əliyevin siyasi iradəsinə və qətiyyətinə söykəndi. Bakı-Tbilisi-Ceyhan neft boru kəmərində olduğu kimi, "Cənub Qaz Dəhlizi"nin çəkilişi də bəzilərinə xəyal kimi görünürdü. Onlara bu cür düşünməyə əsas verən o idi ki, Avropanın enerji təhlükəsizliyi ilə bağlı bir sıra təşəbbüslər irəli sürülsə də, müəyyən ideyalar ortaya atılsa da, heç biri reallaşmamışdı. Məsələn, vaxtilə uzlaşmayan siyasi yanaşmalar səbəbindən reallaşdırılmayan NABUKKO layihəsi kimi. İllər öncə NABUKKO ətrafında müzakirələr aparılsa da, layihə həyata vəsiqə almamışdı.

Lakin Azərbaycandan "qoca qitə"yə qədər 3500 km məsafə qət edən "Cənub Qaz Qəhlizi" layihəsində Prezident İlham Əliyevin imzası və qətiyyəti vardı. O qətiyyət ki, buna qədər Azərbaycanın bütün enerji layihələrinin uğurla həyata keçirilməsini təmin etmişdi. Bu baxımdan "Cənub Qaz Dəhlizi"nin ideyadan reallığa çevrilməsi məhz Prezident İlham Əliyevin siyasi diplomatiyasının nəticəsi oldu. Dövlətimizin başçısı bütün maraqlı tərəfləri, siyasi və iqtisadi strukturları bu layihə ətrafında səfərbər etdi, onları komanda halında birləşdirdi. Həm Avropa İttifaqının, həm də "Cənub Qaz Dəhlizi" üzərində yerləşən dövlətlərin iştirakı ilə "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası formatında bu layihə ətrafında uğurlu əməkdaşlıq və müzakirə platforması yaradıldı.

"Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında Prezident İlham Əliyev bununla bağlı deyib: "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası 11-ci dəfədir Bakıda toplaşır. Azərbaycan tərəfindən başlanmış və Avropa Komissiyası tərəfindən dəstəklənmiş bu vacib toplantı enerji təhlükəsizliyi sahəsində yanaşmaların formalaşdırılmasında, həmin məsələlərin həllində və birgə səylərimizin əlaqələndirilməsində mühüm rol oynamışdır. Həmçinin bu gün birgə foto çəkdirdiyimiz zaman söylədim ki, bəlkə də bizə daha çox yer lazım olacaq, çünki komanda genişlənir. Bu isə əməkdaşlığın çox yaxşı təzahürüdür. Vaxt keçdikcə prosesdə iştirak edən ölkələrin və şirkətlərin sayı artır, onlar ortaq məqsəd ətrafında birləşir. Birinci məqsəd əməkdaşlığın gücləndirilməsidir, çünki əməkdaşlıq olmadan enerji təhlükəsizliyi layihələrinin heç biri mümkün olmazdı".

Eləcə də həm Aİ-nin rəhbər şəxsləri, həm də "Cənub Daz Dəhlizi"nin birləşdirdiyi dövlətlərin rəhbərləri enerji təhlükəsizliyi məsələlərində Azərbaycan Prezidentinin uzaqgörənliyini və müdrikliyini yüksək qiymətləndiriblər. Onlar Prezident İlham Əliyevin enerji məsələləri ilə bağlı təşəbbüslərinin, Azərbaycanın etibarlı tərəfdaş olmasının Avropanın sabit enerji təhlükəsizliyinin təmin olunmasında xüsusi rol oynadığını dəfələrlə qeyd ediblər.

### Respublikamız qlobal çağırışların önündə gedərək "yaşıl enerji" mənbələri yaradır

Çağdaş dünyanın çağırışları artıq bir müddətdir ki, həm də "yaşıl" və hidrogen enerji mənbələrinin yaradılmasını qlobal gündəmə gətirib. Azərbaycan dövləti də enerji təhlükəsizliyi ilə bağlı hədəflərini yalnız ənənəvi enerji resursları üzərində müəyyən etmir. Respublikamız həm də yeni qlobal çağırışların önündə gedərək alternativ enerji mənbələri yaradır, "yaşıl" və bərpaolunan enerjiyə sürətli keçid edir.

"Bu gün günəş və külək enerji stansiyalarına aid sərmayədarlarımızla artıq imzalanmış müqavilələr bizə 2030-cu ilə qədər 6 giqavat günəş və külək enerjisi təmin edəcək. Qeyd etdiyim kimi, nəticədə daxildə bu gün elektrik enerjisinin istehsalında istifadə etdiyimiz təbii qaza xeyli dərəcə qənaət etmək imkanı yaranacaq və həmin qazı ixraca yönəldəcəyik" deyən Prezident İlham Əliyev respublikamızda bu istiqamətdə atılan addımları, Şərqi Zəngəzur və Qarabağ ərazilərində həyata keçirilən layihələri diqqətə çatdırdı. İşğaldan azad edilmiş ərazilərdə artıq 270 meqavatlıq su-elektrik stansiyaları qurmuşuq. Artıq 30-dan çox kiçik su-elektrik stansiyası istismara verilib və maksimum növbəti beş ildə bu rəqəm əlavə 30 kiçik su-elektrik stansiyası ilə 500 meqavata çatdırılacaq.

230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının istifadəyə verilməsi, 240 meqavat gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının inşasının davam etdirilməsi, Cəbrayıl rayonunda 240 MVt-lıq "Şəfəq" Günəş-Elektrik Stansiyasının təməlinin atılması təsdiq edir ki, Azərbaycanda "yaşıl enerji"yə keçidlə bağlı təşəbbüslər sürətlə reallaşır.

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Rumıniyanın paytaxtı Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu sazişin imzalanması mərasimində Avropa Komissiyası prezidentinin də iştirakı göstərirdi ki, ölkəmizlə bağlı enerji təşəbbüsləri Aİ tərəfindən dəstəklənir və Azərbaycan ümumavropa enerji təchizatçısı kimi qəbul olunur.

Azərbaycandan Avropaya "yaşıl enerji"nin ötürülməsi ilə bağlı çəkiləcək kabellə əlaqədar texniki əsaslandırma işləri son mərhələdədir. Hazırda isə Azərbaycanın, Gürcüstanın, Macarıstanın və Rumıniyanın təmsil olunduğu "yaşıl enerji" komandasının sıraları tezliklə daha da genişlənəcək. Çünki bu genişlənməni zaman və mövcud reallıqlar tələb edir. Necə ki, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının iştirakçılarının sayı zamanla artmışdı. Bu baxımdan cəmi bir neçə il sonra Avropa bir daha Prezident İlham Əliyevin müdrik uzaqgörənliyinə şahidlik edəcək.

Azərbaycanın "yaşıl enerji" planları artıq real nəticələrlə müşahidə olunur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, beş il ərzində bərpaolunan mənbələrdən enerji istehsalı potensialımızı demək olar ki, iki dəfə artıracağıq. Bütün bunlar isə Azərbaycanın qlobal enerji təhlükəsizliyi sahəsində mövqelərini daha da gücləndirəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.-6 aprel (№ 66).- S.4.